**HEYDƏR ƏLİYEV VƏ MİLLİ KİTAB SİYASƏTİ:**
**TARİXİ KONTEKST VƏ MƏDƏNİYYƏT STRATEGİYASI**


***Arzu Mehman qızı Abdulzadə***

*AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu,*
*Multidissiplinar əlyazmaların tədqiqi şöbəsi*
*baş mütəxəssis*
*Səbail rayonu, İstiqlaliyyət küç.26*
*arzuabdulzadah@gmail.com*



***Açar sözlər:*** *kitab, mədəniyyət, Heydər Əliyev, milli dəyər, nəşriyyat*
***Ключевые слова:*** *книга, культура, Гейдар Алиев, национальная ценность, издательство*
***Keywords:*** *the book, culture, Heydar Aliyev, national value, publishing*



**Xülasə:** Bu tədqiqatın əsas məqsədi Heydər Əliyev imzasında kitabın və kitab mədəniyyətinin yerini və müasir dövr üçün aktuallığını üzə çıxarmaqdır.

Azərbaycanda kitab mədəniyyəti çoxəsrlik tarixə malik olub, milli-mənəvi dəyərlərin qorunmasında və ötürülməsində mühüm rol oynamışdır. Bu mədəniyyətin inkişafı tarixi kontekstdə əlyazma ənənələri, mətbəə işi, maarifçilik hərəkatı və s. ilə zənginləşmişdir. Kitab mədəniyyəti Heydər Əliyevin siyasi fəaliyyəti və ideoloji baxışları ilə daha sistemli və dövlət yönümlü xarakter almışdır.

Heydər Əliyev sovet dövründən kitabı milli özünüdərk və mədəni inkişafın əsas vasitəsi kimi dəyərləndirmiş, bu sahədə konkret tədbirlərin həyata keçirilməsinə təşəbbüs göstərmişdir. Onun rəhbərliyi dövründə kitabxana sisteminin təkmilləşdirilməsi və müvafiq hüquqi-normativ bazanın formalaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Müstəqillik dövründə onun ideyaları əsasında həyata keçirilən dövlət proqramları kitab nəşri, müəllif hüquqları, kitabxanaların modernləşdirilməsi sahəsində dərin iz qoymuşdur.

Aparılan tədqiqatlar göstərir ki, Heydər Əliyevin mədəniyyət siyasətində kitab xüsusi yer tutmuş, onun təşəbbüsləri müasir Azərbaycan kitab mədəniyyətinin inkişafına və cəmiyyətin intellektual potensialının möhkəmlənməsinə güclü təkan vermişdir.

**Резюме:** Основная цель данного исследования-выявить место книги и книжной культуры в подписи Гейдара Алиева и ее актуальность для современности.

Книжная культура в Азербайджане имеет многовековую историю, сыграла важную роль в сохранении и передаче национально-духовных ценностей. Развитие этой культуры в историческом контексте связано с рукописными традициями, типографским делом, движением просвещения и т. д. и обогащены. Книжная культура приобрела более системный и ориентированный на государство характер благодаря политической деятельности и идеологическим взглядам Гейдара Алиева.

Гейдар Алиев с советских времен ценил книгу как главное средство национального самосознания и культурного развития, инициировал реализацию конкретных мер в этой области. За время его руководства были предприняты серьезные шаги по совершенствованию библиотечной системы и формированию соответствующей нормативно-правовой базы. Государственные программы, реализуемые в период независимости на основе его идей, оставили глубокий след в области книгоиздания, авторского права, модернизации библиотек.

Проведенные исследования показывают, что книга заняла особое место в культурной политике Гейдара Алиева, ее инициативы дали мощный толчок развитию современной азербайджанской книжной культуры и укреплению интеллектуального потенциала общества.

**Summary:** The main purpose of this study is to reveal the place and relevance of the book and book culture in the signature of Heydar Aliyev.

The book culture in Azerbaijan has a centuries-old history and played an important role in preserving and transmitting national and spiritual values. The development of this culture is based on the historical context of manuscript traditions, typographical work, the Enlightenment Movement, etc. enriched with. The book culture has become more systematic and state-oriented with Heydar Aliyev's political activity and ideological views.

Heydar Aliyev valued the book since Soviet times as the main means of national self-awareness and cultural development, and initiated the implementation of concrete measures in this area. During his leadership, serious steps were taken to improve the library system and form an appropriate legal and regulatory framework. State programs implemented on the basis of his ideas during the period of independence left a deep mark in the field of book publishing, copyright, modernization of libraries.

The researches show that the book occupied a special place in Heydar Aliyev's cultural policy, and his initiatives gave a strong impetus to the development of modern Azerbaijani book culture and strengthening the intellectual potential of society.

**Giriş:** Kitab mədəniyyəti istənilən xalqın intellektual potensialının formalaşmasında, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində əvəzsiz rol oynayır. Kitab yalnız bilik mənbəyi deyil, eyni zamanda ictimai yaddaşın daşıyıcısı, dilin və mədəni kimliyin qorunmasının vasitəsidir. Bu baxımdan, milli mədəniyyətin mühüm sahələrindən biri kimi kitab nəşri, yayımı və oxu mədəniyyəti cəmiyyətin inkişaf səviyyəsinin göstəricilərindən sayılır. Azərbaycan mədəniyyət tarixində isə bu sahənin dirçəldilməsi və sistemli şəkildə inkişaf etdirilməsi prosesində böyük lider Heydər Əliyevin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Xalqımızın bəşər tarixinə bəxş etdiyi elə şəxsiyyətlər var ki, onlar xalqın müqəddəratına, özünü təsdiq etmə yolunda, tarixə iz salmasında böyük rol oynamışdır. Bu şəxsiyyətlərdən biri də Azərbaycanın Ümummilli lideri, Ulu öndər Heydər Əliyevdir. Heydər Əliyevin Azərbaycan tarixində rolu yalnız ictimai-siyasi əhəmiyyət daşımır. O, milli-mənəvi dəyərlərimizin mühafizəsi, mədəniyyətimizin inkişafı və dünya səviyyəsində tanıdılması və s. böyük işlər görmüşdür [3, s.8 12].

Heydər Əliyevin Azərbaycan xalqının mədəni-mənəvi dirçəlişində oynadığı rolu dəyərləndirərkən, onun kitab mədəniyyətinə verdiyi diqqət xüsusi qeyd olunmalıdır. XX əsrin ikinci yarısından etibarən ölkədə aparılan mədəniyyət siyasətində kitab və kitabxana işi dövlət səviyyəsində təşviq olunmuş, maarifləndirici nəşrlərin kütləviləşməsi, milli irsin çap yolu ilə qorunması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Xüsusilə 1969–1982-ci illərdə Azərbaycan SSRİ rəhbəri kimi fəaliyyəti dövründə Heydər Əliyev kitab mədəniyyətinin inkişafını ümummilli əhəmiyyətli məsələ kimi qiymətləndirmiş, bu sahənin maddi-texniki bazasının gücləndirilməsini, nəşriyyat işinin keyfiyyətcə yenilənməsini və oxucularla kitab arasında əlaqənin möhkəmləndirilməsini prioritet vəzifələr sırasında görmüşdür.

Müstəqillik dövründə də bu siyasət ardıcıl şəkildə davam etdirilmiş, milli dövlətçiliyin ideoloji dayaqlarından biri kimi kitab və oxu mədəniyyəti dövlət quruculuğunun ayrılmaz komponenti kimi nəzərdən keçirilmişdir. Bu dövrün xüsusiyyətlərindən biri kimi Azərbaycanın tarixi, dili, ədəbiyyatı, folkloru və mədəniyyətinin sistemli şəkildə nəşr olunması, klassik irsin yenidən dövriyyəyə buraxılması, xarici dillərdə nəşrlərlə beynəlxalq aləmə çıxarılması diqqət çəkir.

**Tarixi Kontekst və Kitab Mədəniyyətinin Kökü**

İslam Sadığın dediyi kimi - "*Kitab xalqın, toplumun, ayrı-ayrı fərdlərin, bütövlükdə cəmiyyətin mədəni inkişafının əsas stimulverici mənbələrindən biridir. Bu gün nə ayrı-ayrı insanların, nə də cəmiyyətin mədəni inkişafını kitabsız təsəvvür etmək olmaz. Kitabı oxucuya çatdırmadan, onun istifadəsinə vermədən, kitabdakı bilikləri insanların malı etmədən, kitabın cəmiyyətin mədəni inkişafındakı*

*vəzifəsini yerinə yetirməsini təmin etmək mümkün deyil*" [4]. Azərbaycanda kitab mədəniyyətinin yaranmasının, formalaşmasının böyük tarixi vardır. Əlyazma kitabları kağız materialdan istifadə etməklə hazırlanan Azərbaycan kitabının birinci mərhələsini təşkil etmişdir. Azərbaycanda kitab istehsalının ikinci mərhələsinə çap kitablarının meydana çıxması ilə başlanmışdır. Bu mərhələ indi də davam edir.

Azərbaycan ərazisində kitab mədəniyyətinin formalaşması qədim yazı nümunələri və əlyazma ənənələri ilə sıx bağlıdır. Bu mədəniyyətin əsası hələ Qafqaz Albaniyası dövründə qoyulmuş, erkən orta əsrlərdən etibarən isə İslam mədəniyyətinin təsiri ilə yeni mərhələyə qədəm qoymuşdur. X əsrdən başlayaraq Azərbaycanda dini, hüquqi, tibbi və fəlsəfi məzmunlu əsərlər ərəb və fars dillərində yazılmış, əlyazma şəklində yayılmışdı. XII-XV əsrlərdə isə bu əlyazmalar zəngin miniatür sənəti və xəttatlıqla bəzədilərək həm estetik, həm də elmi dəyər kəsb edən mədəniyyət nümunələrinə çevrilmişdir.

Azərbaycanın klassik şair və mütəfəkkirləri – Nizami Gəncəvi, Xaqani Şirvani, Məhəmməd Füzuli və başqalarının əsərləri dövrün kitab mədəniyyətinin zirvəsini təşkil etmişdir. Bu əsərlər təkcə yazı və fikir mənbəyi deyil, həm də kitab sənətinin (xəttatlıq, miniatür, zərgərlik və s.) yüksək inkişaf səviyyəsinin göstəriciləridir. Onların əlyazma nüsxələri bu gün dünya kitabxanalarında qorunur və öyrənilir. Məsələn, Topqapı Sarayı, Britaniya Kitabxanası, Fransız Milli Kitabxanası bu əlyazmaların nadir nüsxələrini öz fondunda saxlayır.

XIX əsr Azərbaycan kitab mədəniyyətində yeni bir mərhələ açdı. 1813 və 1828-ci illərdən sonra çar Rusiyası tərkibinə daxil edilən Azərbaycan ərazisində ilk müasir mətbəə 1832-ci ildə Tiflisdə fəaliyyətə başlamışdır. Azərbaycanda isə ilk mətbəə Bakıda 1864-cü ildə, daha sonra Şuşada 1874-cü ildə açılmışdır. 1875-ci ildə Həsən bəy Zərdabinin rəhbərliyi ilə nəşr edilən "Əkinçi" qəzeti Azərbaycanda milli mətbuatın və çap işinin əsasını qoydu. Bu dövrdə Maarifçi hərəkat çərçivəsində Mirzə Fətəli Axundzadə, Firidun bəy Köçərli, Cəlil Məmmədquluzadə kimi ziyalılar kitab və mətbuat vasitəsilə xalqın maariflənməsi və milli özünüdərk ideyalarının yayılmasına çalışmışlar.

XX əsrin əvvəllərində fəaliyyətə başlayan "Kaspi", "İrşad", "Molla Nəsrəddin" kimi mətbu orqanlar, eyni zamanda nəşr edilən dərsliklər və elmi əsərlər milli kitab mədəniyyətinin yüksəlişinə təkan verdi. Sovet hakimiyyəti qurulduqdan sonra kitab mədəniyyəti dövlət nəzarətinə keçdi. Bu dövrdə əsas məqsəd sovet ideologiyasının təbliği olsa da, texniki və təşkilati baxımdan nəşriyyat işi ciddi inkişaf etdi. 1920-ci illərdə "Azərnəşr", "Maarif" kimi nəşriyyatlar yaradıldı, kitabxanaların sayı artırıldı və oxucularla kitab arasında sistemli əlaqə quruldu. Lakin bu mərhələdə milli-mənəvi dəyərlərin əks olunduğu əsərlər senzura səbəbilə ya az çap olunur, ya da təhrif edilirdi.

Bu vəziyyət 1969-cu ildə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə dəyişməyə başladı. Onun rəhbərliyi dövründə (1969–1982) milli-mədəni dəyərlərə və milli şüurun inkişafına yönəlmiş siyasət formalaşdı. Kitab nəşri, kitabxana şəbəkəsinin genişləndirilməsi, nəşriyyatların texniki imkanlarının gücləndirilməsi həmin siyasətin əsas istiqamətləri sırasında idi. Bu dövrdə klassik Azərbaycan ədəbiyyatı nümunələrinin yenidən nəşri, ensiklopedik nəşrlərin hazırlanması, məktəblər üçün milli ruhda dərsliklərin çapı geniş vüsət aldı. Bu, həm də milli kimliyin qorunması və ideoloji müstəvidə özünüdərk prosesinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyırdı.

**Heydər Əliyev ideyalarının müstəqillik dövründə kitab mədəniyyətinə təsiri**

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra, kitab mədəniyyəti sahəsində də ciddi keyfiyyət dəyişiklikləri zəruri idi. Lakin 1990-cı illərin əvvəllərində ölkədəki siyasi qeyri-sabitlik, iqtisadi böhran və hərbi münaqişələr bu sahənin inkişafını ləngitdi. 1993-cü ildə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə dövlətçilik prinsiplərinə əsaslanan mədəni siyasətin əsasları qoyuldu və kitab mədəniyyətinin inkişafı həmin siyasətin mühüm tərkib hissəsinə çevrildi.

Heydər Əliyev milli-mənəvi irsin qorunmasını və yeni nəsillərə ötürülməsini prioritet hesab edir, kitabı bu məqsədə xidmət edən əsas vasitələrdən biri kimi qiymətləndirirdi. Onun təşəbbüsü ilə

1995-ci ildə Azərbaycan Respublikasının Milli Kitabxanasına rəsmi olaraq M.F. Axundovun adı verildi, bu isə kitabxananın milli statusunun təsdiqi kimi dəyərləndirildi. Eyni zamanda, kitabxanaların fəaliyyəti ilə bağlı müvafiq normativ-hüquqi bazanın formalaşdırılmasına başlanıldı [1, s.47-60].

1997-ci ildə “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsinin hazırlanmasına start verildi və bu, sonrakı illərdə sahənin hüquqi tənzimlənməsi baxımından mühüm mərhələ oldu. Bu dövrdə Milli Kitabxana ilə yanaşı, Respublika Uşaq Kitabxanası, Respublika Elmi-Pedaqoji Kitabxana, AMEA Mərkəzi Elmi Kitabxanası kimi qurumların da fəaliyyət dairəsi genişləndirildi.

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1998-ci ildə “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanun qəbul edildi. Bu qərar yalnız dilin statusunu deyil, həm də Azərbaycan dilində nəşr olunan kitabların say və keyfiyyət baxımından artırılmasına ciddi təkan verdi. Bu dövrdən başlayaraq dövlət büdcəsindən ayrılan vəsaitlə məktəb dərslikləri, milli ədəbiyyat klassiklərinin əsərləri, elmi-populyar və maarifçi kitablar çap olunmağa başladı. Azərbaycan Milli Ensiklopediyasının nəşrinə dair ilkin hazırlıq işləri də məhz Heydər Əliyevin tapşırığı ilə həmin illərdə başlamış və bu layihə onun ideoloji kursunun bir hissəsinə çevrilmişdi.

Bundan əlavə, 1990-cı illərin sonlarında Heydər Əliyevin sərəncamı ilə “Azərbaycan kitabı” proqramı hazırlanaraq tətbiq olundu. Proqram çərçivəsində milli mədəniyyətin müxtəlif sahələrini əks etdirən tematik kitab seriyalarının nəşri həyata keçirildi: “Milli mədəni irs”, “Azərbaycan ədəbiyyatı”, “Tarixi şəxsiyyətlər” və digər seriyalar ictimaiyyət tərəfindən maraqla qarşılandı. Bu nəşrlər həm tədqiqatçılar, həm də geniş oxucu kütləsi üçün mühüm mənbəyə çevrildi [2, s.87-90].

Heydər Əliyev həmçinin müəllif hüquqları və nəşriyyatların fəaliyyətinin tənzimlənməsi məsələlərinə də xüsusi diqqət yetirmişdir. Onun təşəbbüsü ilə 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanun qəbul edildi ki, bu da kitab mədəniyyətində keyfiyyətli nəşrlərin və intellektual mülkiyyətin qorunmasının hüquqi zəmanətini yaratdı.

2000-ci ildə isə Heydər Əliyevin təşəbbüsü ilə “Kitabxanaların inkişafı üzrə Dövlət Proqramı” hazırlanmağa başlandı və sonrakı illərdə bu proqram Prezident İlham Əliyev tərəfindən təsdiq edilərək uğurla həyata keçirildi. Bu proqram çərçivəsində kitabxanaların elektronlaşdırılması, müasir informasiya texnologiyalarına inteqrasiya olunması, kənd və rayon kitabxanalarının bərpası və yeni kitab fondlarının yaradılması istiqamətində konkret addımlar atıldı.

Heydər Əliyevin ideyalarının davamı olaraq, bu gün də müstəqil Azərbaycanda kitab mədəniyyətinə yüksək dövlət qayğısı göstərilir. Onun “Mənəvi dəyərlərimizi yaşatmaq üçün biz ilk növbədə milli mədəniyyətimizə, ədəbiyyatımıza, kitabımıza sahib çıxmalıyıq” fikri bu sahədə yol xəritəsi funksiyasını daşıyır.

**Ədəbiyyat**

1. *Xələfov, A.A.* Azərbaycanda kitabxana işinin tarixi (dərslik) II hissə. -Bakı: Bakı Universiteti nəşriyyatı, 2009.-126 s.

2. *Xələfov, A.A.* Azərbaycanda kitabxana işinin tarixi (dərslik) III hissə. -Bakı: Bakı Universiteti nəşriyyatı, 2010.-432 s.

3. *Tahirov K.* Heydər Əliyev və Milli Kitabxana. -Bakı: Şərq-Qərb nəşriyyatı, 2022.-180 s.

4. https://525.az/news/130533-azerbaycanda-kitab-medeniyyeti-haqqinda-monoqrafiya